**Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi *ilə əlaqədar əlilliyi müəyyən edilmiş* və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların uşaqlarının təhsil xərclərinin ödənilməsi haqqında**[1]

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi *ilə əlaqədar əlilliyi müəyyən edilmiş* və Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatla əlaqədar itkin düşən və məhkəmə tərəfindən ölmüş elan edilən vətəndaşların Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və magistratura (*əsas (baza ali) tibb təhsili* və rezidentura) təhsil səviyyələrində*, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində* və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan uşaqlarının təhsil müddəti ərzində təhsil haqqı 2014/2015-ci tədris ilindən etibarən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 25 iyun tarixli 120 nömrəli qərarı ilə təsdiq edilmiş təhsil xərcləri miqdarında dövlət büdcəsinin vəsaiti hesabına ödənilsin.[2]

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 mart 2014-cü il
347

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 18 iyul 2016-cı il tarixli **2208** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 19 iyul 2016-cı il, 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 7, maddə 1297**)
2. 1 mart 2019-cu il tarixli **1003** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 3 mart 2019-cu il, 51, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 443**)
3. 14 avqust 2020-ci il tarixli **2212** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 15 avqust 2020-ci il, 160, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1065**)

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 14 avqust 2020-ci il tarixli **2212** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 15 avqust 2020-ci il, 160, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 8, maddə 1065** ) ilə adında və 1-ci hissədə "**zamanı əlil olmuş**" sözləri "**ilə əlaqədar əlilliyi müəyyən edilmiş**" sözləri ilə əvəz edilmişdir.

[2] 18 iyul 2016-cı il tarixli **2208** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 19 iyul 2016-cı il, 153, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 7, maddə 1297**) ilə 1-ci hissəsində "**səviyyələrində**" sözündən sonra "**, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində**" sözləri əlavə edilmişdir.

1 mart 2019-cu il tarixli **1003** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 3 mart 2019-cu il, 51 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 3, maddə 443**) ilə 1-ci hissədə "**tibb təhsilində əsas** " sözləri "**əsas (baza ali) tibb təhsili** " sözləri ilə əvəz edilmişdir.